Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Kino dünyaya açılan pəncərədir

**Kinorejissor Rasim Ocaqovun 90 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2023**

**Tərtibçi:** **Könül Səmədzadə**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**“Kino dünyaya açılan pəncərədir” -** Kinorejissor Rasim Ocaqovun 90 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2023. – 25 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**

## Bölmə I

**Mən hər mənada xoşbəxt insanam. Doğulduğum vaxt və yer baxımından da, kinoya gəlməyim, çəkdiyim kinolar, kimlərlə işləməyim baxımından da. Ailəmdə də xoşbəxtəm. Xoşbəxt insan olmaq həyatın fenomenal hadisəsidir.**

***Rasim Ocaqov***

Böyük bir nəsil onun sənətindən bəhrələnib. Kinorejissor, Xalq artisti Rasim Ocaqov ömrünün demək olar ki, böyük bir dövrünü insanlara mənəvi yardımçı olan kino sənətinə, onun inkişafına həsr etmişdir. Onun yaratdığı filmlərdə günümüzün reallıqları, insanların mürəkkəb münasibətləri, yaşamaq, yaratmaq həvəsi dolğun əksini tapıb. Rasim Ocaqov professional kinematoqrafçı idi. İstər operator, istərsə də rejissor kimi lentə aldığı tarixi və müasir mövzulu filmlər kino tariximizin çox qiymətli nümunələri olmaqla yanaşı, dövrün, zamanın ab-havasını özündə yaşadan əsərlərdir. Bu kinolentlərdəki qəhrəmanlar zamanın sınaqlarına sinə gərən, bəzən öz həyatları bahasına arzu və istəklərinə doğru can atan insanlardır. Onların əksəriyyəti bizim müasirlərimizdir: bizim kimi yaşayır, bizim kimi düşünür, bizim kmimi mübarizə aparırlar. Fərq ondadır ki, onlar biganə deyillər, ətrafda baş verənlərin fərqinə varırlar. Ona görə də Rasim Ocaqovun qəhrəmanlarını tamaşaçılar sevir, onların həyat mövqeyini bəyənirlər.

Rasim Ocaqovun yoxluğu bütövlükdə incəsənətimiz üçün böyük itkidir. Bu itkini biz bundan sonra daha çox hiss edəcəyik. Rasim müəllim hələ çox filmlər çəkə bilərdi. Elə

ölümündən bir neçə ay əvvəl ona yeni ssenari təklif olunmuşdu. Bildirmişdi ki, səhhəti işləməyə imkan vermir.

Bu gün milli kinomuzun tarixinə nəzər salsaq, böyük bir dövrün filmlərində onun adına rast gəlmək mümkündür. O, kinoya operator kimi gəlmişdi. Elə operatorluq təhsilini də Moskvada, Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda almışdı. "Azərbaycanfilm"ə qayıtdıqdan sonra "Bir məhəlləli iki oğlan", "Uzaq sahillərdə" filmlərində ikinci operator kimi böyük rejissorlarla işləmişdi. "Onun böyük ürəyi" isə operator kimi Rasim müəllimin ilk böyük yaradıcılıq işi idi. Sonra bir-birinin ardınca "Əsil dost", "Mateo Falkone", "Bizim küçə", "Sən niyə susursan?", "Bir cənub şəhərində", "Skripkanın sərgüzəşti", "Ömrün ilk günü" kimi filmlərdə quruluşçu operator işləmişdi. Bu filmlərdə operator işinin xüsusiyyəti ondan ibarətdir ki, Rasim müəllim obyektin hansı nöqtədən ekrana gətirilməsini çox düzgün müəyyən edə bilib, işıq-kölgə münasibətlərini, əks etdirməyi bacarıb.

Rasim müəllim geniş panoram çəkilişlərinə deyil, obrazların daxili dünyasına daha çox üstünlük verirdi. Əsas planları qabarda bilir, ona ətrafın ab-havasını hopdururdu. Ona görə də bu filmlər tamaşaçını yormurdu.

Görünür, bu böyük sənətkar sonradan rejissorluq peşəsini seçərkən öz operatorluq təcrübəsinə arxalanmışdı. O, bu sahədə də böyük uğurlar qazana bildi. "Yolda əhvalat" filminə 1960-ildə rejissor kimi quruluş verdi. Düz 14 il sonra isə "Qatır Məmməd" onun quruluşunda ekrana çıxarıldı. Çoxları bu filmin müvəffəqiyyətinə inanmaq istəmirdi. Ancaq tamaşaçılar filmi sevdi və o böyük uğurla Ümumittifaq ekranlarında nümayiş etdirildi.

Rasim Ocaqov Azərbaycan kinosunun korifeylərindən idi. O, SSRİ və respublika Dövlət mükafatlarına layiq görülmüşdü. "Ad günü" filmi, əslində, adi bir hadisənin ekran variantıdır. Amma bu adilikdə rejissor çox güclü ictimai motivlər tapa bilir. İnsanları mehriban, xoşbəxt görmək onun sənət məsləyi idi. "Ad günü"nün qəhrəmnaları da öz həyatlarını yaşayan belə insanlardır. Onlar təsadüfən rastlaşsalar belə, bir-biri ilə dil tapıb, münasibət qura bilirlər. Rejissor respublika Dövlət mükafatına layiq görülmüş bu filmin sujetini davam etdirərək sonradan "Həm ziyarət, həm ticarət" filmini çəkmişdi.

"İstintaq" filmi bütün SSRİ məkanına böyük səs salmışdı. İlk dəfə olaraq bu filmdə ölkədə korrupsiyanın mövcudluğundan və ona qarşı mübarizənin vaxtının yetişdiyindən cəsarətlə söhbət açılmışdı.

Rasim Ocaqov o xoşbəxt sənətkarlardan idi ki, ətrafına yaxşı insanlar toplaya bilirdi. Böyük kinodramaturq, xalq yazıçısı Rüstəm İbrahimbəyovla yaradıcılıq əlaqəsi onun rejissor kimi imkanlarını daha da artırmışdı. Onun ssenarisi əsasında çəkilən filmlərdə həm operator, həm də rejissor kimi çalışmışdı. "Ad günü", "İstintaq" filmləri ilə yanaşı, "Bağlı qapı", "Park", "Özgə ömrü", "Ölsəm...bağışla", "Təhminə" və s. filmlərin quruluşunu vermişdi.

Onun yaradıcılığı müasir gənclik üçün böyük örnəkdir. Onun filmlərində öyrəniləsi çox şeylər var. "Tütək səsi" filmində Azərbaycan müharibə dövründə elə dolğun təsvir olunub, ekranda elə hadisələr canlandırılır ki, bunu ancaq professional rejissor bacara bilərdi. İsa Hüseynovun ssenarisi əsasında çəkilmiş bu film əsl həyatın özüdür. Burada müharibə təsvir olunmur, ancaq tamaşaçı onun insan talelərinə təsvirini aydın hiss edir.

Rasim müəllim sənədli kinomuzun da layiqli nümunələrini yaradıb. “Bakı bu gün”, “Məhəmməd Füzuli”, (operator), “Abidələr danışır”, “Dağıstanın səhnə ustaları”, “Çiçək yağışı” və başqa filmlər buna misal ola bilər.

O, kinomuzun inkişafına, tərəqqisinə həmişə böyük qayğı ilə yanaşırdı. Uzun illər Kinematoqrafçılar İttifaqının katibi olmuşdu, ömrünün son günlərində də bu təşkilatda çalışırdı.

Rasim Ocaqov böyük sənətkar olmaqla yanaşı, həm də böyük insan idi. O, kinonun ağır vaxtlarında çalışırdı ki, aktyorlar işsiz qalmasın, onlara rol verirdi, səsləndirməyə cəlb edirdi. Ümumiyyətlə, bu istedadlı rejissor bütün mənalı həyatını kinoya sərf etmişdi. Öz sənətini sevirdi, onun yaşaması üçün əlindən gələni əsirgəmirdi.

...Və nəhayət, amansız ölüm kinomuzun bu gözəl sənətkarının bütün arzularını yarımçıq qoydu. Bizə isə böyük sənət əsərləri, qiymətli filmlər yadigar qaldı. Bəli, Rasim müəllimin xatirəsi onun sənətini sevənlərin qəlbində əbədi yaşayacaqdır.

## Yubiley tədbirlərinin keçirilməsi

Vaxt keçir, nəsillər bir-birini əvəzləyir, tamaşaçılar dəyişir, lakin görkəmli kinorejissor və operator, Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı, Xalq artisti Rasim Ocaqovun filmlərinə maraq azalmır. Noyabrın 22-si onun 85 yaşı tamam olacaqdı...

1933-cü il noyabrın 22-də Şəkidə doğulmuş R.Ocaqov məktəbi bitirdikdən sonra Moskvaya gedir və ölkənin ən elit ali məktəblərindən olan Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunu yüksək nəticələrlə başa vurur. Bakıya qayıtdıqdan sonra 1970-80-ci illərin Azərbaycan kinosunun inkişafına böyük

töhfə verir. Onun filmləri ən nüfuzlu Azərbaycan, ümumittifaq və beynəlxalq mükafatları qazanır və ən əsası, onun filmləri növbəti onilliklər üçün Azərbaycan kinematoqrafiyasının simasını müəyyən edir. R.Ocaqovun filmləri olmadan həmin dövrün kinematoqrafiyası gövdəsiz budaqlar kimi, ümumi qayəsi olmayan ayrı-ayrı kinolentlərə parçalanır. Onunla işləyən və təkcə Azərbaycandan yox, Rusiya, Türkiyə, Gürcüstan, Moldova və digər ölkələrdən olan aktyorlar rejissorun tamaşaçı məhəbbəti qazanmış, kino sənətinin təkrarolunmaz səhifələrinə çevrilmiş filmlərində çəkilməkdən qürur duyduqlarını bildiriblər. O, dünya kino ənənələrindən məharətlə yararlanan kinematoqrafiya nümayəndələrindən olub. R.Ocaqovun filmlərinin üslubu digərlərindən fərqlənir: kadrın dəqiq kompozisiyası, dramatik epizodlarda görüntünün dəqiq qrafik cilalanması və lirik epizodlarda təsirli əlvan effektlər. Onun rejissorluq işində operator Ocaqovun yenilikləri ilə qanunauyğun əlaqə görünür.

R.Ocaqov eyni zamanda çox təvazökar insan olub və işləri ilə danışmağa üstünlük verib. Belə də olub: Ocaqov kinosu milli kinematoqrafiya tarixinin ən parlaq səhifələrindən biridir. Görkəmli rejissor Rasim Ocaqovun 90 illik yubileyi münasibətilə respublikamızın bir çox təhsil ocaqlarında, məktəblərdə, lisey və gimnaziyalarda, kitabxanalarda və s. yerlərdə tədbirlər planı hazırlanmışdır. F. Köçərli adına Respublika Uşaq Kitabxanasında tədbirlər planına əsasən foto sərgi hazırlanmışdır. Həmçinin kitabxanada bir çox oxucu kütləsinin sorğularını ödəmək məqsədilə Azərbaycan kinosunun inkişafı haqqında yazılan kitab, dövrü mətbuatda çap olunan məqalələrdən ibarət sərgi təşkil olunur. Sərgiyə müxtəlif başlıqlar vermək olar. “Rasim Ocaqov- 90, “Ömrünün kamillik zirvəsini yaşayan insan”, “Sənət adamı Rasim Ocaqov” və s.

Kitabxanamızda təşkil olunan sərginin nümunəsini sizlər üçün təqdim edirik.

1. Başlıq. “Rasim Ocaqov-90”.
2. Rasim Ocaqovun portreti
3. Görkəmli şəxsiyyətlərin Rasim Ocaqov haqqında söylədikləri
4. Kitabların nümayişi.
5. Dövrü mətbuatda çap olunan məqalələrin kartotekası.
6. Foto sərgi.

**Görkəmli insanların kinorejissor Rasim Ocaqov haqqında söylədikləri:**

"Mənim üçün Rasim Ocaqov çox dəyərli adam idi. Həyatda ən unudulmaz, xoşbəxt günlərim onunla işlədiyim anlardır. Ondan insana yalnız müsbət enerji gəlirdi. O, çox şən, yüksək istedada malik bir insan idi. Ən əsası isə onda Şərq müdrikliyi vardı. Onun sevgisinin sərhədi yox idi. Mən onun bir neçə filminə çəkilmişəm.

Filmlərdə onun düzlüyü, vətəndaş mövqeyi məni valeh edirdi. Heç yadımdan çıxmaz: "İstintaq" filmində çəkilərkən elə anlar olurdu ki, o, heç cür güzəştə getmirdi, heç yerdə yalan danışmırdı. O zaman etiraf etdim ki, əgər mənim həyatımda müstəntiq Qəniyev olmasaydı, hər şey dəhşətli olardı. Ona görə yox ki, bu rola görə SSRİ Dövlət mükafatı almışam, ona görə ki, bu rol mənə həm insan, həm də artist kimi çox şey verdi. Xüsusilə vurğulayım ki, rejissorlar müxtəlif olur, amma Rasim Ocaqov təkcə böyük ustad yox, həm də böyük insan olub. Mən onunla işləməkdən çox xoşbəxt idim".

***Aleksandr Kalyagin***

“Rasim Ocaqovun məni bu rola seçməsinin tarixçəsi var. Mənim kinoda imicim həmin rola qədər formalaşmışdı. Bu, film üçün vacib idi. Mən ideya daşıyıcısı idim – şər qarşısında uduzmaq hüququ olmayan xeyir. Amma bu, birinci örtükdür. Təbii ki, çəkilişlər zamanı biz daha dərinə nəzər salırdıq. Həmin vaxt rejissorluğa meyillənmişdim və Rasim Ocaqovun peşəkar addımlarını təhlil edirdim. Mənə ən xoş gələn onun xeyirxah mühit yaratmaq qabiliyyəti idi və bu, aktyora özünü göstərmək imkanı verirdi. Heç bir əmr, heç bir göstəriş yox idi. Qısa və anlaşılan izahlar verirdi. Hər şey sakit, təşvişsiz, əsəbsiz, ədəbazlıq olmadan gedirdi. Aktyor onun üçün çəkiliş yoldaşı deyil, sanki filmin həmqurucusu idi. Buna görə mən Rasim Ocaqova minnətdaram”.

***Rodion Naxapetov***

“Mən aktyora hörmət edən, onun rola yanaşma tərzini anlayan rejissorlarla işləməyi xoşlayıram. Rasim Ocaqov da çəkildiyim "Qətldən yeddi gün sonra" filminin çəkiliş meydançasında belə idi. O elə bir mühit yaratmışdı ki, insanlar bir yerdə işləməkdən məmnunluq duyurdular. Bizdə qarşılıqlı hörmət hissi yaranmışdı. Rasim Ocaqov öz əqidəsində azad olan insanlardan idi, heç bir partiya və ideoloji öhdəliyə tabe olmurdu. O, yalan danışmırdı, ikiüzlülük etmirdi və özünü xoşbəxt insan hesab edirdi”.

***Yuri Yakovlev***

“Əli obrazına görə Azərbaycan Dövlət mükafatına layiq görülmüşəm və buna görə çox minnətdaram. Əli obrazının uğurlu alınmasında mərhum kinorejissor Rasim Ocaqovun böyük rolu oldu. Əziz insan kimi onu hər zaman yad edirəm. O, mənə Əlinin xarakterini yaratmağa çox kömək etdi.

Filmdə Əlinin digər əsas qəhrəman Mustafa ilə ilk görüş səhnəsini lentə alırdıq. Bunun üçün bir binadakı mənzilə daxil olduq. Mən qrimdə idim. Mənzildə yaşayan şəxs mənimlə Azərbaycan dilində danışmağa başladı. Ona mənim gürcü olduğumu dedilər. O isə cavabında "Necə yəni gürcü? O, əsl azərbaycanlıdır!" deyə reaksiya verdi.

Əlinin balıq axtardığı bazar səhnəsi lentə alınarkən çəkiliş gizli aparılırdı. Satıcılar azərbaycanlı olduğumu zənn edib, mənimlə Azərbaycan dilində danışırdılar. Mən isə onlarla rusca söhbət edirdim. Yadımdadır ki, filmin son epizodu çəkilərkən Əli qarmon çalmalı idi. Mən də qarmon çalmağı bacarmırdım. Rasim Ocaqov Azərbaycanın tanınmış qarmon ifaçısını dəvət etdi. Onun adı təəssüf ki, yadımda qalmayıb. O, mənə 2-3 dəfə qarmonda ifa etməyi göstərdi. Mən onu diqqətlə müşahidə etdim. Çəkiliş meydançasında qarmonu mənə verdilər və üç dubla həmin epizod uğurla çəkildi.

Ümumiyyətlə, Rasim Ocaqov çəkiliş meydançasında elə mühit yaratmışdı ki, bütün komanda bir ailə kimi idi. Bütün yaradıcı heyət arasında çox mehriban və dost münasibətlər var idi. Heç bir ayrı-seçkiliyə yol verilmirdi. Ən əsası isə Bakıda yaxşı dostlar qazandım. Bakını öz doğma şəhərim kimi çox sevirəm".

***David Uplisaşvili***

"Mən Rasim Ocaqovu çox sevirdim, çünki qeyri-adi insan, möhtəşəm rejissor idi. Xoşbəxtəm ki, tale mənə bu cür insanla tanış olmaq şansı verdi. Azərbaycan bu cür şəxsiyyətlə qürur duymalıdır! O, bizə atalıq qayğısı ilə yanaşırdı. Onun filmlərinin birində çəkilmək mənim üçün böyük şərəfdir. Məni Azərbaycanda hələ də Təhminə kimi tanıyırlar, mən bundan çox məmnunam. Ömrüm boyu Rasim müəllimin ruhunun şad olması

üçün dua edəcəyəm. Hesab edirəm ki, Rasim Ocaqov bir məktəbi ifadə edirdi və mən bu məktəbin layiqli şagirdiyəm”.

***Meral Konrat***

“Rasim Ocaqov çox xeyirxah, maraqlı insan idi. Onu qüsursuz zövq və kollektivə bağlılıq fərqləndirirdi. İlk baxışdan tərki-dünya təsiri bağışlasa da, çox həssas idi. Mən telefonu qaldıranda və onun “Necəsən, Fərhad?” sualını eşidəndə özümü xoşbəxt hiss edirdim. Rasim Ocaqovsuz, onun filmləri olmadan mən kino aktyoru kimi sözümü deyə bilməzdim. Əlbəttə, yaradıcılıq mübahisələrimiz də olurdu. Amma mən hər dəfə ona yaxınlaşır, qucaqlayıb öpürdüm.

Bir dəfə Rasim Ocaqovdan soruşmuşdular ki, kino sizin üçün nədir? O fikirləşib cavab vermişdi: taxikardiya, işemiya, infarkt. Onu hamı çox sevirdi və hörmət edirdi. Mən Tanrıya minnətdaram ki, Rasim Ocaqov kimi müəllimim olub”.

***Fəxrəddin Manafov***

“Mənim həyat və yaradıcılığımda Rasim Ocaqov böyük rol oynayıb. O, məni kinoya gətirən adam olub. Mənə kinematoqrafiyanın sirlərini açıb. 1976-cı il idi. “Azərbaycanfilm” kinostudiyasında idim. Həmişə rejissor və ssenari müəlliflərinin toplaşdığı bufetdə çay içirdim. Qəflətən rejissor mənə yaxınlaşdı: “Yeni bir film çəkirəm. “Ad günü” filminə fotosınaq üçün gəl, səni dəvət edirəm”. Sonradan bildim ki, o məni kənardan izləyirmiş. Çəkilişə səhər saat 7-də gəlməyimi tapşırmışdı. Mən gələndə yalnız xadimələri görürdüm. Kostyumçu saat 8-də gəlirdi, mən paltarımı dəyişirdim. Bir saat sonra isə qrimçi gəlirdi. Sonra başa düşdüm ki, Rasim Ocaqov mənə tez gəlməyi qəsdən tapşırıb. Axı tək qalanda özüm-özümlə məşq edirdim.

Rasim Ocaqov yaradıcılığı bütöv məktəbdir. O, öz həyatı və filmləri ilə bizi bu gün də isidən ocaqdır. Rasim Ocaqov

həmişə deyirdi ki, məqsədim ədalətli film çəkməkdir. Onun filmlərində dərin vətənpərvərlik hiss olunurdu”.

***Hacı İsmayılov***

“Əgər ssenari onun xoşuna gəlmirdisə, deyirdi ki, "mənlik deyil". Mən kinostudiyada bir çoxlarını tanıyırdım, onlara nə təklif edirdilərsə, qəbul edirdilər: həm komediya, həm nağıl, həm dram, bir sözlə, hər şey. Çəkiliş meydançasında həddən artıq ciddi idi. Mən çox şeyləri ondan öyrənmişəm. Mən rola girəndə teatrdakı kimi alınırdı. Onda Rasim məni saxlayırdı. Deyirdi ki, kino sadəliyi sevir. Kinoda zərif oynamaq lazımdır. Biz Rasim Ocaqovu yoxluğunu hiss edirik və vaxt keçdikcə daha çox hiss edəcəyik. Mənim təsəllim odur ki, o, yaxşı həyat yaşadı və gözəl əsərlər yaratdı. Gənc nəsil, kino adamları, aktyorlar hər zaman onun əsərlərinə müraciət edəcəklər”.

***Rasim Balayev***

“Biz onunla dost idik. Mən onu həm insan kimi, həm də kinorejissor kimi çox yüksək qiymətləndirirdim. Mənə o qədər sevinc bəxş etmişdi ki... Ən yaxşı rollarım onunla və onun filmləri ilə bağlıdır. Azadlıq, özünəinam bəxş etmişdi mənə. Demək olar ki, hər gün onunla söhbət edirdim. Onunla görüşəndə həmişə deyirdim: "Nədir, yenə siqaret çəkirsən, axı bu sənə ziyandır!" Cavabında isə gülür və deyirdi: "İndi olar!” Azərbaycan kinematoqrafiyasında ada var. Bu adanın adı “Rasim Ocaqov filmləri”dir. Onunla işləmək böyük xoşbəxtlik idi”.

***Şəfiqə Məmmədova***

“Mən Rasim Ocaqovu uzun illərdir tanıyırdım. Biz Moskvada oxuyarkən tanış olmuşduq. O, mükəmməl operator olduqdan sonra rejissor olmaq arzusundan əl çəkmirdi. Mən onun filmlərini, iş üslubunu, yaradıcı yanaşmasını bəyənirdim. Onunla iki filmdə məmnuniyyətlə çalışmışam.

Rasim Ocaqovun bütün fikirləri, bütün həyatı kino ilə bağlı idi. O, ailəsini, dostlarını çox sevirdi. Amma ən çox KİNO nu sevirdi. Ən ideal rejissor, gözəl insan, fədakar dost idi, lakin çəkiliş meydançasına gələndə onun fikrini dəyişmək çox çətin olurdu. Bizim fikirlərimiz hər zaman 100 faiz üst-üstə düşməsə də, mən onunla birgə işimizi minnətdarlıqla xatırlayıram”.

***Anar***

“Mən onu bir insan, dost və böyük - ustad kinorejissor, fikir adamı kimi çox yüksək qiymətləndirirəm. O, Azərbaycanda ən yaxşı kinorejissorlardan biridir. Mən Rasim Ocaqovun 10 tammetrajlı bədii filminə musiqi yazmışam. O mənə ssenari verirdi və hansı xarakterdə musiqi yazmaq lazım olduğunu tapşırırdı.

O, həyatda yumşaq qəlbli olsa da, işdə tamam başqa adam olurdu. Yadımdadır ki, onun on filminə yüzdən çox mövzu yazmışam. Rasim Ocaqov çox tələbkar idi. Mən onunla niyə mübahisə etməliydim? Rejissor sifarişçidir. O, yekun nəticəni əvvəlcədən görən tək adamdır. Mən də məmnuniyyətlə ona qulaq asırdım”.

***Emin Sabitoğlu***

“Əlbəttə ki, Rasim Ocaqov kino ustadı, böyük peşəkar idi... Biz bir-birimizi çox gözəl başa düşürdük. Onun gedişi ilə Azərbaycan kinosunun böyük bir dövrü başa çatdı.

Mən ondan çox şey öyrənmişəm. O, kinoda vaxtı dəyərləndirməyi yaxşı bacarırdı. Dəqiq və tələbkar idi – əvvəlcə

özünə qarşı, sonra ətrafdakılara. Əlbəttə, yaradıcı insan kimi çətin adam idi, bəzən sərt olurdu. Bununla belə, onunla işləmək mənə rahat idi.

“Qətldən yeddi gün sonra” filminin bəzi epizodları “Mosfilm”in pavilyonlarında çəkilirdi. Həmin studiyada Rasim haqqında əfsanələr gəzirdi: “Azərbaycandan rejissor gəlib, çox sürətli, dəqiq, tələşsız, hay-küysüz çəkir, qısası, ustad dərsi keçir”. Əlbəttə, o, emosional insan idi, xüsusilə çəkilişin ilk günü çox həyəcanlanırdı, amma bunu çox yaxın adamlardan başqa heç kim hiss etmirdi. Rasim həmişə nə çəkəcəyini bilirdi və bu əminlik ətrafdakılara da keçirdi. O, çox peşəkar və böyük adam idi”.

***Kənan Məmmədov***

“Hər filmdən sonra mənə elə gəlirdi ki, Rasim Ocaqovla işləyənlər əsəblərini müalicə etmək üçün xəstəxanaya getməli idilər. Onunla işlədiyim uzun müddət ərzində mən cəmi bir dəfə 15 dəqiqə çəkiliş meydançasına gecikdim. Rasim Ocaqov həmin gün çəkilişi ləğv etdi. Mən çox təəccübləndim, çünki elə olub ki, aktyorları saatlarla gözləmişik. Niyə mənim 15 dəqiqə gecikməyimə görə çəkiliş ləğv olunsun? O dedi ki, sənin çəkiliş qrupunun üzvü olaraq gecikmək hüququn yoxdur. Sən dəqiq olmalısan. Son dərəcə tələbkar idi, onunla tam gücümüzlə işləmək lazım idi. Rejissor olmamışdan qabaq Rasim Ocaqov operator kimi 14 film çəkmişdi. Yəni onun əvvəl operator olması mənim işimə mane olmurdu, əksinə, köməyi dəyirdi. Mən bəzən ona yaxınlaşıb bir materialı təkrar çəkməyi xahiş edirdim, çünki yeni ideyam yaranırdı. Adətən, mənim fikrimi qəbul edirdi və biz yenidən çəkirdik. Rasim müəllim bu baxımdan çox yaradıcı insan idi, hər zaman bizi dəstəkləyirdi. Aktyor epizodlarına gəldikdə isə o mənə tam azadlıq vermişdi. Mən doğru bildiyim kimi çəkiliş aparırdım”.

***Rafiq Qəmbərov***

“Rasim Ocaqovu çoxdan tanıyırdım, onunla studiyada tez-tez rastlaşırdıq. Onunla işləmək böyük şərəf idi, eyni zamanda böyük məsuliyyət və ağır əmək idi. Rasim Ocaqovun tapşırıqlarını hamı yerinə yetirə bilmirdi. Onun üçün intizam və yüksək peşəkarlıq prioritet idi.

O, “Park” filmini çəkəndə filmin qəhrəmanının yaşadığı yeri hazırlamağı tapşırmışdı. Mən işimin öhdəsindən gəldim və görünür, bu, onun gələcək seçimini müəyyən etdi. Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkədə bir çox sahələrdə, o cümlədən kinematoqrafiyada xaos idi. Bu məqamda Rasim Ocaqov “Ocaq” studiyasını yaratdı və direktor qismində məni dəvət etdi. Bizim qarşımızda dayanan məqsəd gücümüz çatdığı qədər Azərbaycan kinosunu qoruyub saxlamaq idi. Bu ağır şərtlər altında biz “Təhminə”, “Həm ziyarət, həm ticarət” və “Otel otağı” filmlərini çəkdik”.

***Nadir Əliyev***

“Rasim Ocaqov Azərbaycanın aparıcı rejissorlarındandır. Onun yaradıcılığına hər zaman fotoqrafik həqiqət xas idi və bu ondan irəli gəlirdi ki, o, fotoqrafiya sənətini sevirdi. Rasim Ocaqovun filmlərini, ilk növbədə, fəlsəfi-poetik forma fərqləndirir. Onun filmlərində musiqi və görüntü bir-biri ilə harmoniya yaradırdı. Bu filmlərdə ikinci dərəcəli personajlar olmurdu, çünki hər bir xətt düşünüllmüş və dramaturgiya baxımından bağlı olurdu”.

***Cəmil Quliyev***

“Mən Rasimlə institut vaxtından tanışam. Həmin dövrdən onunla dostluq etmək və onun yaradıcılığını müşahidə etmək imkanına sahib olmuşam. Biz onu çox tez itirdik. Rasim Ocaqov çox xeyirxah adam idi və əsl dostluq edə bilirdi”.

***Ramiz Abutalıbov***

“Rasim mənim 50 ilə yaxın dostum olub. Biz onunla 1956-cı ildə “Əsl dost” filminin çəkilişində tanış olmuşuq. Yaş fərqinə və fərqli işlərimizə baxmayaraq – o, baş operator idi, mən isə rejissor köməkçisi – biz dostlaşdıq. Çoxlu xatirələrimiz var.

Mən ilk filmim olan “Bir cənub şəhərində” filmini Rasim Ocaqovla çəkmişəm. O zaman Rasim Ocaqov artıq operator sənətində ustad idi. Rasim çox məsuliyyətli və kino aşiqi idi. Onun filmlərinə baxanda hamı biləcək ki, dünyada Rasim Ocaqov kimi görkəmli şəxsiyyət yaşayıb”.

***Eldar Quliyev***

"Rasim Ocaqov yalanı qəbul edə bilmirdi. Hər zaman saxtalığı hiss edirdi. Özündənrazıları heç sevməzdi. Onun insanlara münasibəti cəmiyyətdə kimliyindən asılı olmayaraq eyni idi. Hamı ilə eyni tərzdə danışırdı. Heç vaxt heç nəyi kimə və yaxud nəyəsə görə etmirdi. İstəmirdi. (Bəlkə də edə bilmirdi). Amma təklif edirdilər. Özü də bir neçə dəfə. Rasim Ocaqov heç vaxt özü üçün heç nə xahiş etmirdi. O, bizim kinematoqrafiyada yeganə insan idi ki, öz sənətini digər sənətə dəyişib. İkinci sənəti ona daha çox uğur gətirmişdi. Məhz ona görə ki, o, çalışmağı çox sevirdi. Özünə qarşı çox tələbkar idi. Bu tələbkarlığın sərhədi yox idi".

***Ramiz Fətəliyev***

# Foto sərgi







«Otel otağı», kinorejissor Rasim Ocaqov və aktyor Fəxrəddin Manafov, 1998











Rasim Ocaqovun 90 illik ömrünün 50 ilə yaxın bir dövrü sənətdə keçib. Kinooperator kimi sənətə gəlib, amma bu gün kinomuzun aparıcı rejissorlardan olub.

Moskva Kinematoqrafiya İnstitutunu bitirəndə Rasim müəllim kinooperator olmaq istəyirdi. 50-ci illərdə Azərbaycan kinosunda artıq yeni operator nəsil yetişirdi. Muxtar Dadaşov, Teyyub Axundov, Xan Babayev, Əlisəttar Atakişiyev və başqaları kinomuzda operator kimi fəaliyyət göstərirdilər.

50-ci illərin sonlarından başlayaraq kinomuzda, həqiqətən, güclü bir canlanma var idi. Yeni nəfəs, yeni mövzular gəlirdi kinoya. Və belə bir vaxtda Rasim Ocaqov Bakı kinostudiyasında ilk çəkilişlərinə başladı.

1957-ci ildə "Bir məhəlləli iki oğlan" filmində işlədi. Operator kimi çəkdiyi filmlərdə kadrlar sujetin ümumi axarına elə uyğunlaşdırılırdı ki, tamaşaçı çox vaxt bu kadrların təsirindən çıxa bilmir, filmin sonuna kimi eyni həvəslə filmə tamaşa edirdi.

"Onun böyük ürəyi" filmi R. Ocaqovun ilk sərbəst işi idi. Yenə də rejissor Əjdər İbrahimov onu öz filminə gətirmişdi. 1958-ci ildə Bakı kinostudiyasında lentə alınmış filmdə R. Ocaqov həm də özünü psixoloji anların ustası kimi təsdiq etdi. Bu film Sumqayıt metallurqlarının həyatına həsr olunmuşdu. Ancaq hiss edirsən ki, bu ağır peşə adamlarının ekran həyatı operatorun kamerası ilə romantik və cəzbedici bir formaya salınmışdır. İnsanların od püskürən soba qarşısındakı gərgin anlarını, bəzən romantik məqamlarda geniş və orta planlardakı vəziyyətləri elə ustalıqla yaradılmışdır ki, tamaşaçı həqiqətən onun yaradıcılarının istedadına heyran qalır.

Doğrudan da, tamaşaçı filmə operatorun gözü ilə baxır. Əgər kinooperator duyumlu, texniki cəhətdən mükəmməldirsə, deməli, filmin baxımlılığı təmin olunmuşdur.

Rasim Ocaqov kinoya heç vaxt artıq detal gətirməyib. O, bəzən heç rejissorla məsləhətləşmədən çəkilişləri aparır, sonradan bu kadrlara birgə tamaşa edəndə rejissorlar onun işinə qibtə edərdilər. "Əsl dost", "Bizim küçə", "Mən rəqs edəcəyəm", "Sən niyə susursan?" və "Skripkanın sərgüzəşti" filmlərində Rasim Ocaqov Azərbaycan kinosunda operatorluq sənətinin ən layiqli nümunələrini yaratdı.

Bir sözlə Xalq artisti Rasim Ocaqov Azərbaycan kinosunun bədii salnaməsini yaradanlardan olub. Onun

filmlərinin üstünlüyü onda olub ki, Rasim müəllim üçün mövzu məhdudiyyəti olmayıb.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Azərbaycan kino sənətinin görkəmli nümayəndəsi Rasim Ocaqovun yubileyi ilə bağlı söhbətin keçirilməsi daha da məqsədəuyğundur. Tədbirin keçirilməsində məqsəd kinorejissorun həyat və fəaliyyəti ilə oxucuları yaxından tanış etmək, gələcək nəsillərə Rasim Ocaqov sənətini sevdirmək, bu sənətə maraq oyatmaqdan ibarətdir.

Tədbirə Rasim Ocaqov sənət dostları, kinorejissorlar, aktyorlar, tələbələr dəvət olunur. Tədbirin maraqlı keçməsi üçün kitabxananın zalında Rasim Ocaqovun filmlərindən fraqmentlərə baxış keçirilir, bu fraqmentlərdən sitatlar səsləndirilir.

Kitabxanaçı tədbirə belə başlayır:

Bu gün  Azərbaycan mədəniyyətinin, kinosunun görkəmli nümayəndəsi, SSRİ və respublika Dövlət mükafatları laureatı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, xalq artisti Rasim Mirqasım oğlu Ocaqovun işığına yığışmışıq.

Bildiyiniz kimi, Rasim Ocaqov Şəkidə 1933-cü il, noyabrın 22-də anadan olmuşdur. 1951-ci ildə orta məktəbi bitirdikdən sonra Moskva Dövlət Kinematoqrafiya İnstitutunun kinooperatorluq fakültəsinə daxil olmuş, 1956-cı ildə təhsilini başa vurmuş, 1961-1967-ci illərdə isə Azərbaycan Dövlət Teatr İnsitutunda rejissorluq fakültəsində təhsil almışdır.

Əmək fəaliyyətinə 1956-cı ildə Azərbaycanfilm" kinostudiyasında quruluşçu-operator kimi başlayan Rasim Ocaqov burada müxtəlif vəzifələrdə çalışmışdır.

Dünya kinematoqrafının ənənələrindən ustalıqla faydalanmış sənətkar kimi Rasim Ocaqovun yaradıcılıq yolu milli kino mədəniyyəti tarixində ayrıca bir mərhələdir.

Ölkəmizdə kinooperator sənətinin zəngin imkanlarının üzə çıxarılması və təkmilləşdirilməsində onun əməyi təqdirəlayiqdir.

Operator işi və sənətkarlıq cəhətdən maraqlı kinofilmlərin çəkilişində novator üsul və metodlardan bacarıqla istifadə edən Rasim Ocaqov mədəniyyətimizin incilərindən sayılan bir çox kino və televiziya filmlərinin ustalıqla yaradılmasına nail olmuşdur.

Azərbaycan kinematoqrafiyasında artıq istedadlı kinooperator kimi şöhrət qazanmış Rasim Ocaqov 1970-cı illərdən etibarən rejissorluq sahəsində fəaliyyət göstərməyə başlamışdır. O, Azərbaycan kino mədəniyyəti ənənələrinin zənginləşdirilməsində böyük əmək sərf etmiş, kino sənətimizə yeni-yeni uğurlar qazandırmışdır. Rasim Ocaqov ekran həyatı verdiyi bədii və sənədli filmləri ilə kino sənəti salnaməmizə parlaq səhifələr yazmışdır. Onun çəkdiyi həqiqi sənət nümunələri olan bu filmlər Azərbaycan kinematoqrafının qızıl fonduna daxil olmuşdur. Məzmun rəngarəngliyi, fəal vətəndaşlıq mövqeyi və müasirlik duyğusu ilə yanaşı, obrazların incə psixologizmi və hadisələrin həyatiliyi Rasim Ocaqov sənətinin əsas cəhətlərini təşkil etmişdir.

Rasim Ocaqovun böyük operatorluq və rejissorluq məharəti sənətkara ölkəmizin hüdudlarından kənarda da böyük şöhrət gətirmişdir. Onun yaratdığı kino və televiziya filmləri ayrı-ayrı kinofestivallarda Azərbaycan mədəniyyətini yüksək səviyyədə təmsil edərək müxtəlif təltiflərə layiq görülmüş, sənətşünaslar və tamaşaçılar tərəfindən daim böyük rəğbətlə qarşılanmışdır.

Azərbaycan kino sənətinin tanınmış nümayəndəsi Rasim Ocaqovun milli kino mədəniyyətinin inkişafı sahəsindəki xidmətləri yüksək qiymətləndirilmişdir. O, müxtəlif illərdə bir sıra dövlət mükafatları və fəxri adlar almış, müstəqil

Azərbaycanın ali mükafatı olan "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Rasim Ocaqov təbiətcə qaraqabaq, başıaşağı adam idi. Düşüncəli görkəmi vardı. Bütün bunları xatırlatmaqda məqsəd Rasim Ocaqovun həm də bir ictimai xadim olaraq cəmiyyətin bütün problemlərini gündəmə gətirdiyini, həm də bir maarifçi olaraq insanları düzgün yola yönəltdiyini diqqətə çatdırmaqdır. O bunu bacardı və yaratdığı saysız-hesabsız sənət əsərləri ilə xalqımızın qəlbinə yol tapa bildi. Bu gün də onun filmlərindən sitatlar gətirilir, real həyata misal olaraq nümunələr göstərilir. Rejisor üçün bəlkə də ən böyük uğur onun yaratdığı filmlərə təkrar-təkrar baxan izləyicilərin olmasıdır. Rasim Ocaqov o sənətkarlardandır ki, onun filmləri müasirləşən dünyamızda belə aktuallığını qoruyub saxlayır. Rasim Ocaqov gözəl insani keyfiyyətlərə malik, nəcib bir insan idi. Böyüklə böyük, uşaqla uşaq idi. Yenicə kinoya qədəm qoyan və can atan aktyorların hamisi idi. Resjisorluq fakültəsini bitirən gənclər əmin idilər ki, onlara mütləq yer var. Çünki Rasim Ocaqov filmlərlə bərabər peşəkar insanlar da yetişdirməyi bacarırdı. Bu işdə isə birinci addımı onlara "yaşıl işıq" yandırması idi. Təsadüfi deyil ki, Azərbaycanın kino sənayesində kifayət qədər məşhur və peşəkar aktyorlar özləri də etiraf edirlər ki, onların bu səviyyəyə gəlməsində Rasim Ocaqovun əməyi misilsizdir.

2006-cı il iyulun 11-də ömrünün 73-cü ilində vəfat etmiş Rasim Ocaqovun işıqlı xatirəsi həmişə ürəklərdə yaşayacaq. Onun ruhu daima qəlblərdə qalacaq.

Allahdan görkəmli sənətkar, qayğıkeş insana rəhmət diləyir, ruhuna dualar oxuyuruq.

**Ruhun şad olsun böyük sənətkar!**

**Ədəbiyyat siyahısı**

# Kitablarda

**Kazımzadə A.** Kinooperator Kənan Məmmədov. - Bakı : Mütərcim, 2010. - 272 s.

Yeniləşən mədəniyyət, yeniləşən məkanlar. IV kitab : Azərbaycan Dövlət Film Fondu. - Bakı : Təhsil, 2010. - 168 s.

# Dövrü mətbuatda

**Abbaslı T.** 70-ə yaxın film : kinorejissor, operator, ssenari müəllifi Rasim Ocaqov haqqında // Mədəniyyət. - 2013. - 22 noyabr. - № 84. - S. 12.

**Abbaslı T.** Rasim Ocaqov : Azərbaycan kinorejissoru, kinooperatoru // Mədəniyyət. - 2014. - 21 noyabr. - № 89/90. - S. 13.

**Abbaslı T.** Rasim Ocaqov Ekranı : Həyatın əksər iz-üzlərini nümayiş etdirmiş bu bədii-sənədli "Güzgü"də müəllifin xarakterik cizgiləri də görünmədə... // Mədəniyyət. - 2018. - 23 noyabr. - № 86. - S. 6.

**Bədəlov N.** "Son müsahibə" : kinorejissor Rasim Ocaqov haqqında // El. - 2009. - N 11. - S. 12-19.

**Əsgərov H.** Yaradıcılıq eşqi // Respublika. - 2017. - 11 iyul. - № 145. - S. 5.

**Fərəcova Z.** Kino sənətinin vurğunu : rejissor, operator, ssenarist // Azərbaycan : qəzet. - 2023. - 5 mart. - № 50. - S. 10.

Görkəmli kinorejissor, Xalq artisti Rasim Ocaqovun xatirəsi anılıb // Xalq qəzeti. - 2019. - 23 noyabr. - № 260. - S. 9.

**Məhərrəmova T.** Onun kimi olmaq mümkün deyil : Ağır təbiətli, qaraqabaq, ürətitəmiz, zəhmətkeş və vicdanlı insan // Səs. - 2017. - 12 iyul. - № 121. - S. 6.

**Mükərrəmoğlu M.** "Şəki, mən səni sevirəm" : Rasim Ocaqov - 85 // Xalq qəzeti. - 2018. - 23 noyabr. - № 264. - S. 11.

**Mükərrəmoğlu M.** Həyata müxtəlif rakusrlardan baxmağı bacaran böyük sənətkar : Rasim Ocaqov - 80 // Xalq qəzeti. - 2013. - 28 noyabr. - № 262. - S. 6.

**Mükərrəmoğlu M.** Ölüm həyatın sonu deyil : Xalq artisti Rasim Ocaqovun xatirəsinə // Xalq qəzeti. - 2006. - 20 iyul. - S.7. .

Rasim Mirqasım oğlu Ocaqov : nekroloq // Xalq qəzeti. - 2006. - 12 iyul. - S. 2-5.

Rasim Ocaqov (1933-2006) // Savalan. - 2018. - 25-31 dekabr. - № 57. - S. 2.

Şəfiqə Məmmədova: "Rasim Ocaqov milli kinomuzun simvoludur" // Xalq qəzeti. - 2020. - 20 noyabr. - № 242. - S. 9 ; Yeni Azərbaycan. - 2020. - 20 noyabr. - № 207. - S. 5 ; Azərbaycan qəzeti. - 2020. - 20 noyabr. - № 242. - S. 11 ; Respublika. - 2020. - 20 noyabr. - № 242. - S. 8 ; iki sahil. - 2020. - 20 noyabr. - № 207. - S. 31.

**Kino dünyaya açılan pəncərədir**

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Könül Səmədzadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı:** **www.clb.az**